# AZƏRBAYCANDA TƏBİƏT VƏ CƏMİYYƏTİN QARŞILIQLI ƏLAQƏSİ – DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFIN OPTİMAL MODELİ KİMİ

**Məlikməmməd Məmmədov**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı*
*Malikmammad.Mammadov@adpu.edu.az*

Müstəqil Azərbaycan dövlətinin hər bir uğuru Ulu Öndərin fəaliyyəti ilə bağlıdır. Onun həyat və fəaliyyəti nəsillər üçün bir nümunədir. Azərbaycanı öz şəxsi nüfuzu və əməli fəaliyyəti ilə dünyada tanıtdırdı, ona Qafqaz regionunda iqtisadi hərbi təsir gücünə malik ən nüfuzlu dövlət statusunu qazandırdı. Heydər Əliyevin əməyi nəticəsində Azərbaycanın güclü, suverən dövlətə çevrilməsi üçün əsaslı dövlət quruculuğu konsepsiyası yetkin siyasi-ideoloji, sosial-mədəni və iqtisadi mexanizmlər hazırlandı. Nəticədə azad, demokratik yeni Azərbaycan quruldu.

Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörənliyi, siyasi iradəsi nəticəsində həyata keçirilən islahatlar, uğurlu daxili və xarici siyasətin nəticəsində sürətlə dəyişən dünyada Azərbaycan öz mövqeyini ildən-ilə möhkəmləndirir. Azərbaycanın son illər ərzində əldə etdiyi uğurların əm mühüm faktoru Prezident İlham Əliyevin təfəkkürünün və düşüncə tərzinin kreativliyi və gələcəyi görmək qabiliyyətidir. Onun yürütdüyü dayanıqlı və davamlı inkişaf siyasətinin "Azərbaycan modeli" bir sıra mühüm amilləri, o cümlədən stabilliyi və iqtisadi inkişafı, sosialyönümlüyü və ədaləti, mədəni müxtəlifliyi və adət-ənənəyə sadiqliyi, demokratikləşmə və insan amilini innovativlik və modernləşməni, biliklərə əsaslanan tərəqqini, informasiya-kommunikasiya texnologiyaları və əqli mülkiyyətin prioritetliyini özündə cəmləşdirən orijinal bir modeldir.

Azərbaycanın yeniləşməsi və müasirləşməsində ən vacib amillərdən biri də təbii tarazlığın balanslaşdırılması siyasətidir. Ölkə iqtisadiyyatının təkamülü yeni davamlı və dayanıqlı inkişaf müstəvisinə qədəm qoymuşdur. İqtisadi inkişaf tərzi şaxələndirilmiş strukturlara əsaslanaraq dayanıqlı inkişaf sferasına dair strateji ideyaların praktiki konsepsiyaları ölkənin əsas ideologiyası hesab edilir.

Dayanıqlı inkişafa keçid Azərbaycanın iqtisadi coğrafi elmi konteksində üç strukturun – "təbii, iqtsadi, sosial anlayışın geniş miqyasda interpretasiyasının təyinatını", "milli dayanıqlı və davamlı inkişaf strategiyası"nın reallaşdırılmasını özündə birləşdirir. Yəni "dayanıqlı və davamlı inkişafın" tam təmin edilməsi üçün onun bütün elementlərinə tarazlı və şaxələndirilmiş tərzdə yanaşılmalıdır. Buna görə də üç funksional strukturun qarşılıqlı fəaliyyətinin iqtisadi-coğrafi aspektləri təhlil olunub.

Müəyyən edilib ki, ölkədə "təbii, iqtisadi, sosial" funskional strukturunun "dayanıqlı və davamlı inkişaf" forması regionların ərazi istehsal strukturlarının balanslaşdırılmış istiqamətlərini əhatə edir. Milli iqtisadiyyatın diversifikasiyasının həll edilməsi dayanıqlı inkişaf modelinə keçid imkanlarını tamamlayır.

Elmi mənbələrin təhlili və metodikası göstərir ki, dünya ölkələrində baş verən müasir industrial tərəqqi bərpa olunmayan mineral xammal resurs potensialının kompleks, intensiv istifadəsinə əsaslanır. Ümumiyyətlə, dünyada ekoloji situasiyanın yaranmasında inkişaf etmiş ölkələrin rolu çox böyükdür. Ona görə də bu ölkələrdə təbiətlə sənaye istehsalının qarşılıqlı təsirinin tənzimlənməsi və ekoloji problemləein yaranmamasından ötrü bütün ölkələr üçün uzunmüddətli fəaliyyət planı işlənib hazırlanmalıdır. Fikrimizcə, sənaye istehsalının ekoloji cəhətdən əsaslandırılması yalnız davamlı və dayanıqlı təsərrüfat şəraitində ola bilər.

Lakin onların həyata keçirilməsi üzrə əlverişli zəminlərin özü çox böyük qüvvə tələb edir. Bizim ölkədə təbii mühitlə cəmiyyətin dialektik əlaqəsinin optimallaşdırılması probleminə demək olar ki, 1990-cı ildə müstəqillik əldə etdikdən sonra böyük diqqət yetirilir. Azərbaycanda ətraf təbii mühitin effektli, elmi cəhətdən əsaslandırılmış bir mərkəzdən idarə edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Azərbaycan Respublikasının tarixində yeni mərhələnin əsasını qoyan "Əsrin müqaviləsi"ndə (1994-cü il) ətraf mühitin çirklənməsinin beynəlxalq qanunlar səviyyəsində gözlənilməsi öz əksini tapmışdır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra təbii potensialından istifadə etmək məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə başladı. Bu təşkilatlardan Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Ekologiya Fondu, BMT-nin Ətraf Mühit Proqramı, Avropa İttifaqının MDB ölkələri üzrə TASİS Proqramı, UNESCO və digər donor dövlətlər – Almaniya, Norveç, Hollandiya, Kanada və s., həmçinin region dövlətlərlə əlaqələr yaradılmışdır. Azərbaycan Respublikası 15-dən çox Beynəlxalq Ekologiya Konvensiyasının və bir çox Beynəlxalq Ekologiya təşkilatlarının üzvüdür. Azərbaycan hökuməti "XXI əsrin gündəliyi" sənədinin müddəalarına əsaslanaraq ətraf mühit barədə özünün milli konsepsiyasını

hazırladı. Həmçinin davamlı inkişaf və təbiətin mühafizəsinə kömək məqsədilə bir neçə qanun qəbul edilmişdir. Onlardan "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı" (2006), "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" (2007) və s. göstərmək olar.

Bütün bu sənədlərdə təbiətdən səmərəli istifadənin, təbii mühitin vəziyyətinə nəzarətin yaxşılaşdırılması, təbiəti mühafizənin təkmilləşdirilməsi üzrə konkret ölçülər göstərilmişdir. Bundan başqa, qəbul edilmiş bu sənədlərin də çox mühüm əhəmiyyəti vardır: "Bitkilərin mühafizəsi haqqında Qanun" (1996), "Pestisidlər və aqrokimyəvi maddələr haqqında Qanun" (1997), Torpağın münbitliyi haqqında Qanun (1999), "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında Qanun" (2003), Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə I, II, III və IV Dövlət Proqramları.

Bazar iqtisadiyyatına keçid dövründə təbiət və cəmiyyətin keyfiyyətcə yeni mərhələsi meydana çıxır.

Bir sözlə, ətraf mühit sahəsində problemlərin həlli ölkənin sosial-iqtisadi inkişaf proqramının tərkib hissəsini təşkil edir. Dövlətin təbii ehtiyatlardan xalqın indi və gələcəkdə maksimum əlverişli istifadə etməsi üçün ətraf təbii mühitin mühafizəsi barədə ideyası onun daxili və xarici siyasətinin prinsiplərini təmsil edir. Bu prinsiplər müstəqil suveren dövlət olan Azərbaycan Respbulikasının əsas qanununda – Konstitusiyasında öz əksini tapmışdır. 12-ci maddəyə təbiətdən səmərəli istifadə edilməsini, ölkənin sosial-iqtisadi inkişafını səciyyələndirən qanun kimi baxılır.